BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2015

**UOT 930.2**

# QOBUSTANDA QƏDİM ROMA KİTABƏSİ

**S.V.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***arkeolok@mail.ru***

*Daşlar üzərində həkk edilmiş qədim yazılar qiymətli tarixi mənbədir. Qobustanda Böyükdaş dağının cənub-şərq ətəyində iri qaya üzərində qeydə alınmış Roma kitabəsi tarixi sənəd kimi böyük əhəmiyyətə malikdir. Bu abidə romalıların XII ildırımsürətli legionunun və ya onun senturiyasının imperator Domisianın (eramızın 81-96-cı illəri) Şərqi Azərbaycanda-Qobustan ərazisində olmasına şahidlik edir.*

**Açar sözlər:** Roma, kitabə, legion, maddi-mədəniyyət

Tariximizi özündə əks etdirən Qobustan maddi-mədəniyyət abidəsi ulu keçmişi daxilində yaşadan müqəddəslik simvoludur. Qobustan piktoqrafik təsvirləri Azərbaycan xalqının ən qədim dövrlərdən indiyə kimi necə yaşadığı haqqında bizə müfəssəl məlumatlar verməkdədir. Qayalar üzərində qədim Azərbaycan xalqının ulu əcdadlarının bizlərə əmanət qoyub getdiyi təsvirlərlə yanaşı burada eramızın I əsrində vətənimizə yürüş etmiş Roma legionu haqqında da yazılı mənbə qalmaqdadır. Eyni zamanda qayalarda orta əsrlər tarixinə dair ərəbdilli mənbələr də mövcuddur. Dünyada ən zəngin qayaüstü təsvirlər kompleksi məhz Qobustan rəsmləridir. Azərbaycanın ən qədim dövr tarixinin və incəsənətinin bir sıra problem məsələlərinin öyrənilməsi üçün Qobustan petroqlifləri nadir mənbələrdir. Bu bir faktdır ki, Qobustan petroqlifləri Azərbaycanın qədim sakinlərinin, onların mədəniyyətinin və incəsənətinin problem məsələlərini, tarixini, məişətini, adət-ənənələrinin öyrənilməsi üçün xüsusi əhəmiyyət kəsb etdiyini və tədqiq olunan mövzunun elmi aktuallığını göstərir. Qeyd edək ki, təsvirlər üst paleolit və bütün sonrakı dövrləri əhatə edir. Qobustan bir tarixi qaynaq kimi, bir tərəfdən landşaftın ritual məkana, digər tərəfdən isə uzun müddət saxlanılan və əcdadlarımızın möhkəm ənənələrini yaradan daimi yaşayış məkanına çevrilməsinin parlaq nümunəsidir. Bu mənzərələr landşafta çəkilmiş işarələrdə və adət-ənənələrdə əks etdirilib. Qobustan maddi-mədəniyyət abidəsinin öyrənilməsində piktoqrafik təsvirlərlə yanaşı, eyni zamanda eramızın I əsrinə aid olan Roma kitabəsinə də rast gəlinmişdir.

Görkəmli arxeoloq Cəfərqulu Rüstəmovun arxeoloji tədqiqatları nəticə-

sində yazılmış “Qobustan dünyası” adlı tarixi əsərində Roma kitabəsi haqqında geniş məlumatlar verilmiş, eyni zamanda bu kitabənin yazılmasının məqsəd və məramı haqqında özünün və başqa tanınmış tədqiqatçıların fikir və mülahizələrini aydın şəkildə qeyd etmişdir (1, 116). Ulu əcdadlarımız olan albanlar ilk sinifli cəmiyyətdə bu torpağın əsl varislərindən biri kimi şöhrət qazanmışlar. Mənbələrdə deyilir ki, eradan əvvəl I əsrdə albanlar romalılara qarşı 60 min piyada, 22 min süvari qoşun çıxarmış, böyük igidliklə vuruşmuşlar. Bizim eranın 90-cı illərində romalıların yenidən Azərbaycana hücumunu, Xəzər sahillərinə qədər gəlmələrini Qobustanda qaya üzərində həkk olunmuş latın yazısı təsdiq edir. Latın qrafikası ilə latın dilində yazılmış bu kitabə 1948-ci ildə İ.M.Cəfərzadə tərəfindən Böyükdaş dağı aşağı səki sahəsində 16-cı daş kimi qeydə alınmış qaya üzərində aşkar edilmişdir. Bu kitabə romalıların ildırımsürətli, XII legion və ya onun senturiyasının, eramızın I əsrinin 84-96-cı illəri arasında Şərqi Azərbaycanda – Qobustan ərazisində olduğunu göstərir. Kitabənin dövrü onun mətnindən aydın olur. Kitabədə deyilir ki, “imperator Domisian Sezar Avqust Germanskinin dövrü Lütsi Yuli Maksim XII ildırımsürətli legionunun senturiyası”. Deməli, kitabə 84-cü ildən əvvəl yazıla bilməzdi, çünki burada Domisianın ləqəbi-Germanski sözü işlənib. Tarixən məlumdur ki, Domisian bu adı 84-cü ildə qallar üzərində qələbədən sonra alıb. Kitabə 96-cı ildən sonra da yazıla bilməzdi, çünki Flavilər sülaləsinin son nümayəndəsi olan Roma imperatoru Tit Flavi Domisian 96-cı ildə bürokratik hakimiyyətini möhkəmləndirməsindən narazı qalmış, Senatın əli ilə azad edilmiş qullar tərəfindən öldürülmüş və onun adının hər yerdən silinməsi haqqında qərar çıxarılmışdır. Belə olduqda sözsüz ki, ölümündən sonra onun adı bu kitabədə çəkilə bilməzdi. Burada Domisianın adının saxlanılması isə görünür onunla bağlıdır ki, Domisianın ölümündən sonra romalıların əli bu yerlərə çatmayıb. Roma qoşun hissəsinin o dövrdə Azərbaycana gəlməsi, eləcə də Qobustan ərazisində olması haqqında ümumiyyətlə, heç bir yazılı məlumat saxlanmamışdır. Ona görə də Roma qoşunlarının bu ərazidə olmasının səbəbi haqda da tam və qəti söz demək çətindir. Lakin bu yazı, hər halda, göstərilən dövrdə romalıların buraya gəlmiş olduqlarına şahidlik edir. Kitabədə XII ildırımsürətli legionun adı çəkilib və senturaya (80-dan 120 nəfərə qədər sayda qoşun bölməsi) işarəsi qoyulub. Bunu da demək çətindir ki, burada legionun özü və ya onun senturiyası olub?

Qobustandakı qədim Roma kitabəsinə İ.M.Cəfərzadə, P.X.Tumbil, Y.A.Paxomov və Z.İ.Yampolski xüsusi məqalələr həsr ediblər. Lakin son nəticə kimi burada olmuş Roma qoşunlarının nə sayı, nə də gəlmələrinin məqsədi, bu haqda bir başqa yazılı məlumatın, maddi dəlilin olmaması üzündən tam aydınlaşdırılmır. Aydın olan isə odur ki, birincisi, kitabə, adı hələ eradan əvvəlki III əsrdən çəkilən, Xəzər dənizinin qərb sahili boyu Cənubdan şimala gedən yolun üstündədir. Yəni romalılar buraya bu qədim yolla gəlmişlər. Fərqi yoxdur, Tumbilin güman etdiyi kimi Sarmat keçidi vasitəsilə olsa (şimaldan) da, Ermənistandan keçərək Ağstafa vadisi və Kür ilə, Cənubdan Xəzər sahili ilə olsa da Böyükdaş və Kənizə dağları ilə Xəzər dənizi arasından keçən yolla gəl-

mişlər. İkincisi, romalılar bu kitabəni çox güman ki, ötəri, yolüstü yazmayıblar, az müddətə (heç olmasa bir neçə günlüyə) də olsa burada dincəlmək üçün dayanıblar. Tədqiqatçılar ona əsaslanır ki, o vaxt üçün qoşun hissəsinin Kür çayından şimala, heç olmasa su olan Bakıya kimi getməsi üçün (100 km-dən çox) azı iki gün vaxt lazım idi və onlar bu yolu gecələyib dincəlmədən keçə bilməzdilər. Bir tərəfdən də orada içməli su da olmalı idi. Belə bir nöqtə, həm yolun yarı edilməsi, həm də su olması baxımından Böyükdaş dağının ətəyi ola bilərdi. Qobustanda aparılmış tədqiqat və müşahidələr göstərir ki, romalılar tərəfindən bu kitabə yazıldığı zaman, ümumən antik dövrdə Böyükdaş dağının cənub və şərq tərəfinin cənub hissəsində qaynar həyat olmuşdur. Nəzərə alsaq ki, o vaxt Böyükdaş dağı yuxarı səki sahəsindəki çox sulu bulaq-quyunun (bu quyunun suyu ilin payiz, qış və yaz aylarında daşıb öz-özünə axır) suyu əl ilə yonulub düzəldilmiş daş arxla dağın cənub ətəyinə axıdılmışdır, buradakı qaynar həyatın həcmini təsəvvür etmək olar. C.Rüstəmov eyni zamanda bir daha qeyd edir ki, İ.M.Cəfərzadə 16 saylı daşın üzərində kitabədən 4 və 8 metr qərbə olmaqla 2 ədəd sadə qazılmış xaçvari (üstəgəl işarəsi kimi) işarə qeydə almışdır. C.Rüstəmovun fikrincə, bu işarə əsl mənasında xristianlıqla bağlı deyil, çünki əvvələn kitabə ilə işarələrin qazılması üsulu və saxlanma vəziyyəti uyğun deyil, bir də ki, Böyük Qobustan ərazisindəki 30 illik axtarış və müşahidələrə əsasən bu ərazidə, ümumiyyətlə, İslama qədər bütpərəstlik və atəşpərəstlik olub, xristianlıq olmayıb (1, 118).

Latınca yazılmış bu kitabə Azərbaycan tarixinin az öyrənilmiş dövrünü müəyyən qədər işıqlandırır. IV əsrin II yarısının latın avtoru Yevtropi yazır ki, Domisian Azərbaycana dörd dəfə hərbi əməliyyat yürüşü təşkil etmişdir. Bu yürüşlərədn birində həmin legion öz sərkərdəsi ilə birlikdə məhv edilmişdir (2). Belə qənaətə gəlmək olar ki, bu latın yazısı Abşeironun yerli əhalisinin məhv etdiyi XII legindan bəhs edir. I əsrdə Roma qoşunlarının Abşeironda olmasını Abşeiron kəndinin birinin Ramana adlanması da təsdiq edir (3). VIII əsrdə Bar Erbey tərəfindən də Kiçik Asiyada Ramana şəhərinin mövcud olmasından danışılır. Bütün bunları nəzərə alaraq demək olar ki, Bakı yaxınlığında olan Qobustanda vaxtilə istilaçı Roma qoşunları yerləşdirilibmiş (4).

Milan Unveristetinin professoru Luici Skrinzinin Qobustan qayaüstü rəsmlərində apardığı bərpa işləri ciddi maraq doğurur. İtaliyalı alim nəinki əski abidənin üzərindəki yazıları bərpa edib, həmçinin onların məzmunlarınıda açıqlayıb. İki böyük daş üzərində tədqiqatların aparan Luici Skrinzi 5 aya yaxın davam edən gərgin işin nəticəsində qədim daşlar üzərində həkk olunan latın və ərəb hərflərinin dağılmaqda olan formasını bərpa edib. Onun qənaətinə görə, yazıların mənasını da, aça bilib. Belə ki, eramızın birinci əsrinə aid edilən latın yazısı olan daşın üzərində “Maksimus Avqust Sezarın zamanında XII legionun başçısı burada olub. XIV-XV əsrlərə aid edilən ərəb dilindəki kitabədə isə “Mən imamam. Bura gəldim, dua etdim və getdim” sözləri yazilib. İtaliyalı alim deyib ki, “sizin ölkənizdə çoxlu tarixi abidələr var və onların hərəsi bir tarixdən xəbər verir. Deyə bilərəm ki, Azərbaycanda hər bir daşın tarixi var" (5, 66).

Belə bir nəticəyə gəlmək olar ki, Qobustandakı latın dilli Roma kitabəsi Azərbaycan tarixinin araşdırılmasında önəmli yerlərdən birini tutur. Qobustanda bir neçə daş və ya qaya üzərində Ərəb əlifbası ilə yazılar da qeydə alınmışdır. Onlar əsasən bir-iki isimdən və ya nəsli adlardan ibarətdir. Ərəb əlifbası ilə, lakin fars dilində yazılmış bir kitabə bu baxımdan müəyyən əhəmiyyət kəsb edir. O, Yazılıtəpədə 91saylı daş üzərində qeydə alınmışdır. Kitabə üç sətirdən ibarədir. 1-ci sətirdə-"İmad", 2-ci sətirdə- İ.M.Cəfərzadənin oxuduğu kimi-"Şaki" (və ya "Şaci"), 3-cü sətirdə-"dua qoftə rəft" yəni-dua etdi getdi yazılmış və dua etdi sözü ilə getdi sözü arasında iri bir çevrə qazılmışdır. İshaq müəllimin bu işarəni ibadət duvağı hesab etməsi həqiqətə uyğundur. Yazının dövrü orta əsrlərə-XIII-XV əsrlərə aid edilir. Qobustanda Kiçikdaş dağı Daşqışlaq sahəsindəki 15 saylı daşın üzərində, maral şəkilləri arasında ərəb əlifbası ilə iki yazı qalığı var. Onlardan biri müəyyən əhəmiyyət kəsb edir. İki sözdən ibarət olan bu yazıda "Məlik Şaci" yazılmışdır. Burada yazı kufi xətlədir. Lakin nəsx xəttinin elementlərinin olması yazını XIII əsrə aid edir. Bu yazı çox aydın yazılmış yaxşı saxlanılmışdır. Buradakı "Şaci" sözü formaca Yazılıtəpədəki "Şaki" oxunmuş sözlə eynidir. Orada əlifin yuxarı ucu sola əyilib cimin başlanğıcı ilə birləşdiyindən "Şaki" kimi oxunmuşdur və bizə görə orada da "Şaki" yox, "Şaci" yazılmışdır. Hər iki oxunuşda bu söz isimdən sonra gəlir və çox güman ki, Şaci ya məkani ləqəb, ya da orta əsrlərdə bu regiondakı qəbilələrdən birinin adı olmuşdur. Bir sıra daşlarda isə ərəb əlifbası ilə "Bəylər" sözü yazılmışdır. Son əsrlərə aid yazılar əslən Mərəzə-Şamaxı zonasından olan nəslin adıdır və burada həmin nəslin adının tez-tez yazılması son əsrlərdə bu yerlərdə o nəslin qışlaması ilə əlaqədardır. Yazılıtəpədə 91 saylı daşdakı yazı isə Yazılıtəpənin pir kimi ibadət yeri olmasının məhsuludur və bu baxımdan İmad Şacinin bu yerə gəlib ibadət etməsi, namaz qılması heç də təəccüblü deyil. Yazılıtəpədə aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş XII-XIII əsrlərə aid üçotaqlı dini bina qalığı yazıya qədər artıq burada var idi və yüz illərlə özündən qabaq "müqəddəs yerdə" yaranmış pir üçün inşa edilmişdi (1, 119).

Qeyd edək ki, qədim maddi-mədəniyyət abidəsi olan Qobustanın qorunmasının konservasiyasının və dünya miqyasında təbliğ olunması perspektivlərinin bir çox məsələləri sənədləşdirmə tələb edir. Bir məsələyə diqqəti cəlb etmək lazımdır ki, Qobustanın maddi-mədəni irsinin tədqiq olunması və qorunması məqsədilə maddi-texniki baza əsasında Qobustan Dövlət tarixi-bədii qoruğu tərəfindən yeni metodları əks etdirən məlumatlar bazası tərtib edilmişdir. Məhz bu materialların əsasında qayaüstü incəsənət abidələrinin tədqiqi, qorunması və istifadəsi məsələləri həll olunur. Qobustan qayalarında Roma kitabəsi və orta əsrlərə dair yazılı mənbələrlə yanaşı kökü daha qədimlərə gedən minə yaxın qaya üzərində Azərbaycan xalqının əcdadlarının mənəvi və maddi mədəniyyətini, mağaralar da daxil olmaqla qədim yaşayış məskənlərini əks etdirən 6 mindən çox rəsm aşkar edilmişdir, bu abidələr kompleksi nadir rəsm, arxeoloji material və ibtidai insanların həyat və fəaliyyət abidələri

kolleksiyası kimi dünya əhəmiyyətinə malikdir. Qrafika, rəsm, teatr, rəqs sənəti, eləcə də digər incəsənət növləri öz başlanğıcını Qobustan abidələri kolleksiyasından götürür. Qobustan daş dövründən tutmuş orta əsrlərədək uzun bir dövrü əhatə edən bir mədəniyyət abidələri ilə çox zəngin tarixi-arxeoloji kompleksdir. Burada minlərlə qayaüstü təsvir, ibtidai insan məskənləri və digər tarixi abidələri var. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6000-dən artıq qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilmiş və öyrənilmişdir. XX əsrin ortalarından başlayaraq Azərbaycan arxeoloqları tərəfindən öyrənilən Qobustan qayaüstü təsvirləri tədqiqatçılara tariximizi öyrənmək üçün bol material vermişdir. Böyükdaş və Kiçikdaş, Cingirdağ, Yazılıtəpə dağlarında 3500-dək qayaüstü təsvir, yalaqlar, yazılar və insan əllərinin yaratdığı digər abidələr arxeoloq İshaq Cəfərzadə tərəfindən kəşf edilmişdir (6). Qobustanda qayalar üzərində qeydə alınmış 6000-dən çox qədim təsvir və başqa abidələrlə yanaşı "Ana zağa", "Ovçular zağası", "Çardaq zağa", "Kənizə", "Öküzlər", "Öüzlər-2", "Maral", "IV sığınacaq", Daşaltı", "Ceyranlar", "Qaya arası", "Firuz", "Firuz-2" və bu kimi ondan çox Daş dövrü düşərgəsi, "Böyükdaş", "Dairə", "Çapmalı" kimi Tunc dövrü yaşayış yerləri və 30-dan çox o dövrün kurqan tipli qəbir abidəsi, antik və orta əsrlərə aid bir sıra tikili və həyat qalıqları aşkar edilib arxeoloji qazıntılarla öyrənilmişdir.

Qobustan abidələri kompleksi uzunu 15-20 km, eni 2 km olan zolaqvari kiçik bir sahədə yerləşən Böyükdaş, Kiçikdaş və Cingirdağ ərazisindəki qayalıqlar arasındadır (1, 59). XX əsrin 40-cı illərinin sonlarında Qobustan qayaüstü rəsmlərinin öyrənilməsinə başlanmış, burada imperator Domisian dövrünün latın kitabəsi də aşkar edilmişdir. Qobustanın ilk tədqiqatçısı İ.M.Cəfərzadə olmuşdur. Qobustan qayaüstü təsvirləri arxeoloq İ.M.Cəfərzadə tərəfindən 1939-1940-cı illərdə Bakının 60-70-km-də, Səngəçal-Duvannı dəmiryol stansiyaları rayonunda, Böyükdaş, Kiçikdaş, Cingirdağ-Yazılıtəpədə aşkar edilmişdir. Onun müntəzəm tədqiqinə isə 1947-ci ildən başlanmışdır. İ.M.Cəfərzadənin rəhbərliyi ilə Qobustanda bir neçə min qaya və daş gözdən keçirilmiş, onlardan 725 daş üstündə döymə, qazma və sürtmə üsulu ilə çəkilmiş 3000-dən çox insan və heyvan rəsmi, 20 qayaaltı sığınacaq qeydə alınmışdır (7, 18).

İ.M.Cəfərzadə qayaüstü təsvirlər barəsində hələ 1965-ci ildə çap etdirdiyi məqaləsində arxeoloji qazıntıların nəticələrinə və qayaüstü təsvirlərin müqayisəli təhlilinə əsasən Qobustan qayaüstü rəsmlərinin e.ə. VIII minillikdən son orta əsrlərə qədərki dövrü əhatə etdiyini göstərmişdi (8, 27). Bu barədə öz fikir və mülahizələrini əsaslandırmaq üçün tədqiqatçı İ.M.Cəfərzadə qayaaltı sığınacaqlarda aşkar edilmiş dəvəgözü daşı qəlpələrinə, qara, qırmızı və şirli qab qırıntılarına diqqət yönəldir (9, 100). İ.M.Cəfərzadənin "Qobustan. Qayaüstü rəsmlər" adlı monoqrafiyasında Qobustanın qaya rəsmlərinin mövzu cəhətdən müxtəlifliyi qeyd olunur. Bu təsvirlərin içərisində natural böyüklükdə kişi və qadın cinsli adamların, vəhşi öküz, dağ keçisi, maral, şir və s. böyük miqdarda təsvirləri üstün yer tutur. Tədqiqatçı ciddi axtarışlar nəticəsində Böyükdaş

dağında daha qədim dövrə aid çiyinlərindən çəpəki ox asılmış, silahlı geyimli və yarımçılpaq qadın və kişi təsvirləri, tək, qrup ("Yallı" tipli) rəqs səhnələri və əllərini yuxarı qaldırmış halda hoppanma vəziyyətində tək rəqs rəsmlərini də aşkara çıxarmışdır (10, 19). 1960-1961-ci illərdə İ.M.Cəfərzadə tərəfindən "Ovçular zağası"nda aparılmış arxeoloji qazıntı işləri nəticəsində aşkar olunmuşdu ki, düşərgə sakinləri qayalarda şəkil döymək və zərb aləti kimi əsas çaydaşı və çaxmaqdaşından istifadə etmişlər. Qazıntıdan tapılmış bazalt tipli çaydaşından döymə alətləri çoxluq təşkil edir. Onların sayı 19 ədəd olmuşdur (8, 19). Bütün bunlar həm də tədqiqatçının axtarışlarında təkcə qayaüstü təsvirlərin məzmununun açılması deyil, eyni zamanda həmin təsvirlərin qazılması, yaranması üsulunun tədqiqinin də mühüm yer tutduğunu göstərir.

## ƏDƏBİYYAT


1. Rüstəmov C. Qobustan dünyası. Bakı: Azərnəşr, 1994, 176 s.
2. az.wikipedia/org/wiki/Qobustan
3. Azerbaijans.com
4. Fact-info. Az
5. Azərbaycan tarixi. (Uzaq keçmişdən 1870-ci ilə qədər), red. S.Əliyarlı. Bakı: Azərnəşr, 1996, 872 s.
6. Vəliyeva Samirə. Qobustan qayalar üzərində salnamədir// Azərbaycan qəzeti, № 156, 2005, 09 iyul.
7. Джафарзаде И.М. Гобустан. Наскальные изображения. Баку: 1973, 198 с.
8. Джафарзаде И.М. Наскальные изображения Кобыстана (Азерб.ССР) // Археологические исследования в Азербайджане (Сборник статей), Баку: 1965, с. 18-29.
9. Bünyadov T.Ə. Azərbaycan arxeologiyası oçerkləri. Bakı: Azərnəşr, 1960, 238 s.
10. Cəfərzadə İ.M. Qobustan. Qayaüstü rəsmlər. Bakı: YNE – XXI, 1999, 259 s.


## ДРЕВНЯЯ РИМСКАЯ НАДПИСЬ В ГОБУСТАНЕ


**С.В.МАМЕДОВА**


### РЕЗЮМЕ


Древние эпиграфические памятники являются ценными историческими источниками. С этой точки зрения древне-латинская надпись, обнаруженная на большой скале юго-восточного подножья горы Беюкдаш имеет большое значение как исторический документ. Она свидетельствует о пребывании XII молниеносного легиона римлян или его центуриона во время правления императора Домициана (81-96 гг. н.э.) в Гобустане.



**Ключевые слова:** Рим, надпись, легион, материально-культурное


## ROMAN INSCRIPTION IN GOBUSTAN


**S.V.MAMMADOVA**


### SUMMARY


The ancient epigraphical monuments are of valuable historical importance. In this repard, old-Latin inscription, found on a large rock in the south-eastern foot of Beyukdash mountain is valued as an important historical document. It evidences the stay of the 12-th Roman legion and its centurion during the reign of Emperor Dominican in Gobustan (81-96 A.D.).



**Key words:** Roman, inscription, legion, material-cultural